**AZƏRBAYCAN RESPUBLİKASININ**

**AUDİTORLAR PALATASI ŞURASININ**

**QƏRARI**

Bakı şəhəri № 230/1 9 aprel 2012-ci il

Azərbaycan Respublikası Auditorlar Palatasının 2011-ci il üzrə fəaliyyətinin yekunlarına dair

Azərbaycan Respublikasının Pzezidenti cənab İlham Əliyevin 2007-ci il 28 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"ya, "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında Əsasnamə"yə müvafiq olaraq ölkə iqtisadiyyatında şəffaflığın artırılması, müstəqil maliyyə nəzaritinin gücləndirilməsi, bununla əlaqadar olaraq auditor xidmətinin inkişafı və təkmilləşdirilməsi, auditor xidmətinin keyfiyyətinin yüksəldilməsi, auditor kadrlarının hazırlanması və ixtisasartırılması, beynəlxalq audit standartlarının və qabaqcıl xarici təcrübənin öyrənilməsi və tətbiq olunması istiqamətləri üzrə zəruri tədbirlərin həyata keçirilməsini təmin etmək, Auditorlar Palatasının 2012-2014-cü illər üzrə iş planının və Palata Şurasının 2012-ci il üzrə iş planının - "Auditorlar Palatasının 2011-ci il üzrə fəaliyyətinin nəticələrinə dair hesabatın hazırlanması, müvafiq qurumlara və ictimaiyyətə çatdırılması" barədə 9.5-ci və 2-ci müvafiq bəndlərinin icrası ilə əlaqadar işçi qrupu (Q.Bayramov, N.Talıbov, A.Kərimov, S.Gülməmmədov) tərəfindən hazırlanmış və Palata Şurasının 2012-ci il 29 fevral tarixli 228/1 saylı qərarına əsasən yenidən işlənilmiş "Azərbaycan Respublikası Auditorlar Palatasının 2011-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat"ın layihəsini müzakirə edərək və bu məsələyə dair Şura üzvlərinin əlavə və təkliflərini nəzərə alaraq, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Auditorlar Palatasının 2011-ci il üzrə fəaliyyətinin yekunlarına dair hazırlanmış hesabat (əlavə olunur) bəyənilsin və Auditorlar Palatasının fəaliyyəti qənaətbəxş hesab edilsin.
2. Auditorlar Palatasının 2011-2013-cü illər üzrə iş planının 1.1 "Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 15 illiyi ilə əlaqədar tədbirlərin həyata keçirilməsi" (Təşkilat Komitəsi), 1.7-ci "Auditor xidməti ilə əaqədar təlimatlar, tövsiyələr və metodik göstərişlərin hazırlanması" (M.Abbasov), 1.8-ci "Mövcud əməkdaşlıq sazişlərinin yenilənməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsi və yeni

sazişlərin bağlanması” (məsul şəxslər), 2.1-ci “Beynəlxalq Standartların tətbiqinə dair İFAC-ın metodiki vəsaitlərinin və tətbiqi istiqamətində tədbirlərin həyata keçirilməsi” (N.Talıbov, S.Gülməmmədov, V.Rəhimov), 3.8-ci “Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Stategiyanın (2007-2011-ci illər) həyata keçirilməsi ilə bağlı Azərbaycan Republikası Auditorlar Palatasının 2011-ci il üzrə tədbirlər planının icrası” (M.Abbasov), 3.9-ci “Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə auditor yoxlamalarının həyata keçirilməsi” (M.Abbasov), 4.3-cü “Tədris və davamlı peşə təhsili proqramlarında qabaqcıl beynəlxalq təcrübənin nəzərə alınması” (N.Talıbov, S.Gülməmmədov), 4.4-cü “Beynəlxalq Standartların tələblərinə uyğun olaraq auditor adı almaq üçün imtahan proqramlarının təkmilləşdirilməsi” (S.Gülməmmədov, İmtahan Komissiyası), 4.5-ci “2011-ci il üzrə auditorların ixtisasartırma kursunun tədris proqramının beynəlxalq standartlara müvafiq olaraq h və qrafikin tərtibi” (S.Gülməmmədov), 5.5-ci “Auditorlar Palatasının üzv olduğu Beynəlxalq peşəkar qurumlarla müvafiq işlərin təşkili” (N.Talıbov, V.Rəhimov), 7.1-ci “Audit” dərs vəsaitinin II nəşri” (N.Talıbov, M/Abbasov, V.Rəhimov), 7.2-ci “Audit.Qanunvericilik və normativ sənədlər” 6-cı cild toplusunun nəşri” (N.Talıbov, M.Abbasov, V.Rəhimov), 7.6-cı “Auditorlar Palatası haqqında bukletin nazırlabnması və nəşri” (Q.Bayramov), 7.8-ci “Müasir şəraitdə auditin aktual problemləri” Polşa-Azərbaycan elmi-praktik simpoziumunun təşkili” (N.Talıbov, S.Gülməmmədov) və sair müvafiq bəndlərində nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icra olunması müsbət işlər kimi qiymətləndirilsin.

3. Auditorlar Palatasının 2011-2013-cü illər üzrə iş planının aşağıda göstərilən müvafiq bəndlərində qeyd olunmuş işlərin yerinə yetirilmədiyi məsul icraçıların nəzərlərinə çatdırılsın:

- (9.19-cu) Auditorlar Palatasının fəaliyyətini geniş əks etdirmək üçün İnternet səhifəsinin təkmilləşdirilməsi işinin təşkili (I yarımil 2011 - V.Rəhimov);
- (9.20-ci) Auditorlar Palatasının fəaliyyətini geniş əks etdirmək üçün İnternet səhifəsinin ingilis və rus dillərində hazırlanması (I yarımil 2011 - Q.Bayramov, V.Rəhimov, S.Gülməmmədov).

4. Auditorlar Palatasının struktur bölmələrinin rəhbərlərinə (Q.Bayramov, M.Abbasov, M.Hacıyev, S.Gülməmmədov, V.Rəhimov) tapşırılsın ki, Palatanın İnternet səhifəsinin təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsini təmin etsinlər.

5. “Auditorlar Palatasının 2011-ci il üzrə fəaliyyətinin yekunlarına dair hesabat” Şura üzvləri tərəfindən edilən təkliflər nəzərə alınmaqla təkmilləşdirilib Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilsin.

6. Aparatın rəhbəri Q.Bayramova, sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova, Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinin rəisi S.Gülməmmədova tapşırılsın ki, Auditorlar Palatasının 2011-ci il üzrə fəaliyyətinin yekunlarına əks etdirən hesabatın qısa icmalının KİV-də dərc etdirilməsini və hesabatın Auditorlar Palatasının İnternet saytında yerləşdirilməklə ictimaiyyətə çatdırılmasını təmin etsinlər.

7. Auditorlar Palatasının struktur bölmələrinin rəhbərlərinə tapşırılsın ki, 2012-ci il üzrə iş planlarında nəzərdə tutulmuş tədbirlərin vaxtında və keyfiyyətlə icra olunmasını təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**